**“İstehsal olunan məhsul vahidinə tələb olunan xammal və material sərfi normaları barədə məlumat forması” elektron xidmətinin**
**İstifadəçi təlimatı**

**“İstehsal olunan məhsul vahidinə tələb olunan xammal və material sərfi normaları barədə məlumat forması”**nın təqdim olunması məqsədilə https://new.e-taxes.gov.az Portalına daxil olub “Giriş” bölməsi seçilir.




Giriş bölməsinə daxil olduqdan sonra açılan pəncərədə “Asan İmza” və yaxud “SİMA Token” bölmələrindən biri seçilir.



İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “Asan İmza” bölməsi seçildikdə “Mobil nömrə” və “İstifadəçi ID” daxil edilir və “Daxil ol” düyməsi sıxılır.




İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “SİMA Token” bölməsi seçildikdə ilk öncə SİMA Token kompüterə qoşulur, sonra “Daxil ol” düyməsi sıxılır.



Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Daha sonra “İstehsal olunan məhsul vahidinə tələb olunan xammal və material sərfi normaları barədə məlumat forması”nın təqdim olunması ilə bağlı “Yeni ərizə” xanasına müraciətə uyğun məlumat formasının adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan məlumat forması seçilir və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə yeni açılan pəncərədə müvafiq məlumat forması seçilir.



Əgər İstifadəçi tərəfindən daha əvvəl bu məlumat forması doldurularaq qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış məlumat formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi tərəfindən əvvəllər qaralaması yaradılmış məlumat forması üzrə davam etmək istənildikdə ekrandakı qaralaması olan məlumat forması seçilir və bu zaman aktivləşən "Davam et" düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş məlumat forması açılır və düzəliş imkanı mümkün olur.




Müvafiq məlumat forması üzrə yeni məlumat forması yaratmaq istənildikdə isə **"Yeni ərizə yarat"** seçilir və **"Davam et"** düyməsi sıxılır.




Açılmış məlumat formasında əks olunan **"Siyahıya qayıt"** düyməsi sıxıldıqda ekranda əks olunan pəncərədəki **"İmtina"** düyməsi sıxılmaqla məlumat formasının doldurulmasına qaldığı yerdən davam etmək, **"Xeyr, silinsin"** düyməsi sıxılmaqla yaradılmış məlumat formasını silmək, **"Bəli, yadda saxlanılsın"** düyməsini sıxmaqla yaradılmış məlumat formasının yadda saxlanılması mümkün olur.




**“Xeyr, silinsin”** düyməsi sıxıldıqda açılan **“Xidmətin yekunlaşdırılması”** pəncərəsindəki müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən “Göndər” düyməsi sıxılır.




Açılmış məlumat formasında “Vergi orqanı” və “Vergi ödəyicisi” barədə məlumatlar avtomatik olaraq doldurulur.




Növbəti mərhələdə “Sahibkarlıq subyektinin kateqoriyası” üzrə seçim edilir.




“Məlumat formasının növü” bölməsi avtomatik olaraq təyin edilir.

*Qeyd: Məlumat forması ilk dəfə hazırlanaraq təqdim olunarsa, o zaman məlumat formasının növü olaraq “Cari”, cari il ərzində 2-ci və ya daha çox dəfə təqdim olunarsa, avtomatik olaraq “Dəqiqləşdirilmiş” təyin edilir.*


Siyahıya qayıt
İstehsal olunan məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları barədə məlumat forması
Yeni
Az En Ru
Rəy
Ərizə
Məlumat forması
Vergi orqanının adı
Xocalı Rayon Vergilər Şöbəsi
Vergi ödəyicisinin VÖEN/Adı
9900001881 / "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Rəhbər
2ZREKPT / HÜSEYNOV ELVİN İNTİQAM OĞLU
Sahibkarlıq subyektinin kateqoriyası *
Orta
İri
Məlumat formasını növü
Cari
Dəqiqləşdirilmiş
İstehsal olunan məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları
Əlavə et
İmzala və göndər
Qaralamada saxla və çıx


Siyahıya qayıt
İstehsal olunan məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları barədə məlumat forması
Yeni
Az En Ru
Rəy
Ərizə
Məlumat forması
Vergi orqanının adı
Xocalı Rayon Vergilər Şöbəsi
Vergi ödəyicisinin VÖEN/Adı
9900001881 / "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Rəhbər
2ZREKPT / HÜSEYNOV ELVİN İNTİQAM OĞLU
Sahibkarlıq subyektinin kat
Cari il üzrə təqdim etdiyiniz 2-ci və daha çox ərizə "məlumat forması" olduğu səbəbindən ərizə formasının növü avtomatik "Dəqiqləşdirilmiş" təyin edilmişdir.
Orta
İri
Məlumat formasını növü
Cari
Dəqiqləşdirilmiş
İstehsal olunan məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları
İstehsal edilmiş məhsul
№
ADI
NÖVÜ
KODU
MARKASI VƏ YAXUD MODELİ
ƏMTƏƏNİN QLOBAL İDENTİFİKASİYA NÖMRƏSİ (GTİN)
ÖLÇÜ VAHİDİ
MİQDARI
ƏMƏLİYYATLAR
1
Pambıq
Əvvəllər istehsal edilmiş
11111
Buta
11111
ton
10
Əlavə et
İmzala və göndər
Qaralamada saxla və çıx

Daha sonra istehsal olunan məhsul barədə məlumatın əlavə edilməsi üçün “Əlavə et” düyməsi sıxılır..







Doldurulması mütləq olan xanalara müvafiq məlumatlar daxil edilir. “Kodu” və “Əmtəənin Qlobal İdentifikasiya Nömrəsi (GTİN)” xanalarının mütləq doldurulması zərurəti yoxdur. “Növü” xanasından məhsulun yeni və ya əvvəllər istehsal edilmiş olması barədə seçim edilir.




Növbəti addımda müvafiq olaraq digər xanalar da doldurularaq “Davam et” düyməsi sıxılır.




İstehsal edilmiş məhsul barədə məlumat ekranda əks olunduqdan sonra həmin məhsulun vahidinə sərf olunan xammal və material barədə məlumatlar mütləq qaydada daxil edilməlidir, əks halda növbəti düyməsi aktivləşməyəcəkdir. Məlumatları qeyd etmək üçün istehsal edilmiş məhsul barədə məlumat əks olunan sətrin sonundakı “ ” düyməsi sıxılaraq “Məhsulun vahidinə tələb olunan xammal və material əlavə et” seçimi edilir.




Açılan pəncərədə müvafiq məlumatlar daxil edildikdən sonra “Davam et” düyməsi sıxılır və istehsal edilmiş məhsul üzrə daxil edilmiş məlumatlar ekranda əks olunur.




İstehsal edilmiş məhsulun vahidinə sərf olunan xammal və material barədə daxil edilmiş məlumatlar üzrə düzəlişə ehtiyac olduqda istehsal edilmiş məhsul barədə məlumat əks olunan sətrin sonundakı “  ” düyməsi sıxılaraq “Redaktə et”, daxil edilmiş məlumatların silinməsi üçün isə “Sil” seçimi edilir.




Daha sonra məlumat formasının göndərilməsi üçün aktivləşən "İmzala və göndər" düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün "Qaralamada saxla və çıx" düyməsi sıxılır.




"İmzala və göndər" düyməsi sıxıldıqdan sonra müvafiq məlumat forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




"İmzala və göndər" düyməsi sıxıldıqda açılan pəncərədə **"İmtina"** düyməsi seçildikdə yenidən əvvəlki pəncərəyə (məlumat formasının doldurulması pəncərəsinə) geri qayıdılır.




Məlumat forması imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun məlumat forması və müvafiq formanın göndərilməsi barədə "Bildiriş" ekranda əks olunur.

Həmin pəncərədə “**Çap”** düyməsi vasitəsi ilə məlumat forması çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. “**Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulur.







İstifadəçi tərəfindən təqdim olunan “İstehsal olunan məhsul vahidinə tələb olunan xammal və material sərfi normaları barədə məlumat forması” onun “Ərizələr” modulundakı “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə məlumat formasının statusu barədə məlumat qeyd olunur.




Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **"Çap"** düyməsi vasitəsi ilə məlumat forması çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

